**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **236/7** **16 noyabr 2012-ci il**

Auditorlar Palatasının 2012-2014-cü il üzrə
iş planında dəyişiklik edilməsi barədə

Auditorlar Palatasının 2012-2014-ci illər üzrə iş planının "Auditor xidmətinin aktual problemləri üzrə sorğunun keçirilməsi və müvafiq icmalın hazırlanması" barədə 9.10-cu bəndinə uyğun olaraq cari ilin oktyabr-dekabr aylarında keçirilməsi nəzərdə tutulan sosioloji sorğunun və müvafiq icmalın hazırlanması ilə əlaqədar Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədovun xidməti məktubunu və bu məsələyə dair Şura üzvlərinin təkliflərini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor xidmətinin aktual problemləri üzrə sorğunun keçirilməsi və müvafiq icmalın hazırlanması" barədə Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədovun xidməti məktubu nəzərə alınsın (əlavə olunur).
2. Sədrin müşaviri A.Kərimova tapşırılsın ki, məlum səbəblərə görə Palatanın əməkdaşlarının 2012-ci il sentyabr-dekabr aylarında məzuniyyətdə olduqlarını nəzərə alaraq, Palatanın 2012-2014-cü il üzrə iş planının 9.10-cu bəndində cari ilin oktyabr-dekabr aylarında keçirilməsi nəzərdə tutulmuş sosioloji sorğunun iş planından çıxarılmasını təmin etsin və növbəti illərdə keçiriləcək sosioloji sorğunun iki ildə bir dəfə keçirilməsini Palatanın iş planlarında nəzərdə tutsun.
3. Palatanın Aparatına (Q.Bayramov) tapşırılsın ki, bu qərarın Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**